Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

№ 33 (1161) 18 fevral - 19 fevral 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# BU GÜNÜN BALAKƏNİ MÜSTƏQİLLİYİMİZİN TÖHFƏSİDİR

(əvvəli ötən sayımızda)

> **“... Bu gün müstəqil dövlətik və ölkəmiz üçün, xalqımız üçün nə lazımdırsa, onu edirik. Bax, müstəqilliyin üstünlükləri bu layihələrin icrasındadır. Azərbaycan nəinki müstəqildir, müstəqil siyasət aparır və güclü dövlətdir. Ancaq güclü dövlətlər belə nəhəng layihələri icra edə bilər”.**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

**2015-ci ildə 5013 ton ət, 20556 ton süd, 73,5 ton yun, 9110 min ədəd yumurta istehsal olunmuşdur. Əvvəlki ilə nisbətən heyvandarlıqda bütün növ məhsulların istehsalı üzrə artımlar müəyyənləşmişdir. Mal-qaranın cins tərkibinin yaxşılaşdırılması məqsədilə süni mayalandırma işinə diqqət artırılmış, bu metod geniş tətbiq olunmağa başlanmışdır.**

”Azəryemsənaye” MMC-nin Qazbinə kəndində yaradılmış heyvandarlıq fermasında ətlik heyvandarlığın inkişaf etdirilməsi istiqamətində işlər davam etdirilmiş, quşçuluq üzrə Qaysa kəndində yaradılmış inqubasiya təsərrüfatının fəaliyyəti genişləndirilmişdir.

Bütövlükdə 2015-ci ildə rayonun kənd təsərrüfatından 62,2 milyon manatlıq gəlir əldə edilmişdir ki, bu da əvvəlki ilə nisbətən 2,7 milyon manat və ya 4,5 faiz çoxdur. İstehsal olunan məhsulun 54,2 faizi bitkiçilik, qalan 45,8 faizi isə heyvandarlıq məhsullarının payına düşür.

2015-ci ildə dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələrindən istifadənin səmərəliliyinin artırılması istiqamətində müvafiq işlər görülmüş, bələdiyyə mülkiyyətində olan 338,5 ha mövsümi, dövlət mülkiyyətində olmaqla təyinatına uyğun istifadə olunmayan 45 ha sahə təyinatına uyğun olaraq əkin dövriyyəsinə qaytarılmışdır. 2015-ci ildə də əvvəllərdə olduğu kimi qarğıdalı məhsulunun istehsalı sahəsində respublikada birincilik qorunub saxlanılmışdır. Kənd təsərrüfatı sahəsində əldə olunan nəticələr 26 oktyabr tarixində rayonda sayca 4-cü dəfə keçirilən ”Məhsul bolluğu” bayramında nümayiş etdirilmiş, bayram tədbirində çox sayda rayon sakini və qonaqlar iştirak etmişdir. Bu tədbirin keçirilməsi artıq ənənə şəklini almış və rayon əhalisinin ən sevimli bayramlarından birinə çevrilmişdir.



### *Yaşıllıq Balakənin başqa bir gözəlliyidir*

Ötən dövr ərzində Balakən şəhərinin park və küçələrində 5 mindən çox çiçək və dekorativ bitki, 800 ədəd şam ağacı əkilmiş və xidmət göstərilmişdir. İDEA ictimai birliyinin həyata keçirdiyi respublika yaşıllaşdırma marafonu çərçivəsində müxtəlif növ ağacların əkilməsi təşkil olunmuş, marafonda idarə və müəssisələr, eləcə də rayon əhalisi fəal iştirak etmişdir. Nəticədə magistral yol boyunca Katex və Poştbinə kəndləri istiqamətində və kənd ərazilərində 15200 ağacın əkilməsi və becərilməsi təmin olunmuşdur. Hesabat dövründə 50 ha meşə əkini aparılmış, 700 ha meşə əkinlərinə xidmət və 44 ha torpaq hazırlığı işləri görülmüşdür. Bundan əlavə 2 ha sahədə tinglik salınmış və tinglərə aqrotexniki xidmət göstərilir. Rayonun fermerlərinin Bakı şəhərində yarmarkalarda iştirakı təşkil edilmiş və həmin yarmarkalarda 40 ton müxtəlif növ meyvə və tərəvəz məhsulları satılmışdır. Eyni zamanda, rayonun arıçıları oktyabrın 10-dan noyabrın 10-dək Bakı şəhərində keçirilən bal yarmarkasında iştirak etmiş və rayonda da bayram yarmarkaları təşkil edilmişdir.

### *Abadlıq və tikinti-quruculuq işləri davam edir*

2015-ci ildə rayon ərazisində abadlaşdırma, tikinti, təmir və quruculuq işləri davam etdirilmiş, Sarıbulaq kənd uşaq bağçası yenidən tikilərək istifadəyə verilmiş, şəhərdə Heydər Əliyev Fondu hesabına 100 yerlik körpələr evi-uşaq bağçasının tikintisi başa çatdırılmışdır. İnternat məktəbinin əsaslı təmiri, kənd təsərrüfatı idarəsinin, rayon polis şöbəsinin inzibati binalarının tikintisi davam etdirilmiş, Meşəşambulda yanğından mühafizə bölməsinin binasının tikintisi başa çatdırılmışdır. Mazımçay sərhəd-keçid məntəqəsinin yaxınlığında ayrılmış 4 hektar sahədə gömrük terminalının tikintisi davam edir.

Şəhərin Z.Əliyeva, A.Ansuxski, C.Məmmədquluzadə küçələrində, dəmiryol stansiyası və Katexkombinat yaşayış məntəqələrində yerləşən ümumilikdə 21 kommunal yaşayış binasının dam örtükləri dəyişdirilmiş, bununla da rayon ərazisində yerləşən 63 kommunal binanın dam örtüyünün dəyişdirilməsi işləri tamamilə başa çatdırılmışdır.

Ə. Ansuxski 1 ünvanında yerləşən kommunal binanın həyəti şəhər bələdiyyəsinin ”Nümunəvi məhəllə” layihəsi çərçivəsində abadlaşdırılmışdır. Həyətdə 2 ədəd talvar tikilmiş, tamet üzlüklə üzlənmə, asfalt və səki tikintisi aparılmış, yaşıllaşdırma işləri görülmüş, sakinlərin istirahəti üçün zəruri şərait yaradılmışdır. Heydər Əliyev prospekti boyunca Qazbinə və Qullar kəndləri istiqamətində 10340 kvadratmetr sahədə hasarlar üzlənmiş, Qullar kəndi istiqamətində yol kənarlarında səkilər tikilməklə 2327 kvadratmetr sahədə səki daşları ilə üzlənmişdir. Qullar kəndi istiqamətində küçə işıqlandırılması sistemi qurulmuş, Qazbinə kəndi istiqamətində yol kənarlarına torpaq daşınmış, ağaclar əkilmiş, yaşıllıqlar salınmış, bəzək və gecə işıqlandırılması sistemi qurulmuşdur. Təhsil, səhiyyə və mədəniyyət müəssisələrindən Qabaqçöl qəsəbə və Katex 1 saylı kənd tam orta, Mazımçay kənd ümumi orta məktəblərində, Meşəşambul, Qazma, Püştətala və Katex 2 saylı kənd uşaq bağçalarında, uşaq yaradıcılıq mərkəzində, Katexkombinat sənətkarlıq evində, mərkəzi və şəhər kitabxanalarında, Heydər Əliyev Mərkəzində, Gərəkli kənd həkim məntəqəsində cari təmir işləri aparılmışdır. Hesabat ilində Yaponiyanın ölkəmizdəki səfirliyinin maliyyə dəstəyi ilə şəhərdə məişət tullantıları poliqonu tikilmişdir. Poliqonda məişət tullantılarının çeşidlənməsi, satışı və zərərsizləşdirilməsi işləri görüləcəkdir. Bu da öz növbəsində Kommunal Müəssisələri Kombinatının gəlirlərini artırmaqla əlavə iş yerləri açmağa imkan verəcəkdir.



Hesabat dövründə respublika və rayon əhəmiyyətli avtomobil yollarında asfalt-beton qarışığı ilə 7682 kvadratmetr cari təmir işləri aparılmış, şəhərin 12 küçəsində 25245 kvadratmetr sahə asfaltlaşdırılmışdır. Balakənçay sistemində 170 p/m, Katexçay sistemində 100 p/m uzunluğunda daş-beton bəndin tikintisi, Balakənçay sistemində 440 m3 həcmində daş beton bəndin cari təmiri aparılmış, çay məcralarında 646 min m3, suvarma kanallarında 160 min m3 həcmində təmizləmə işləri görülmüşdür.

**Azərbaycan Respublikası Prezidentinin ”Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında” 25 dekabr 2014-cü il tarixli Sərəncamına əsasən 2015-ci ildə rayonda 7 artezian quyusu qazılmışdır. Bundan başqa, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin dəstəyi ilə rayonda artezian quyularının qazılması üçün ayrılmış xüsusi briqada tərəfindən Talalar və Sarıbulaq kəndlərində 2 artezian quyusu qazılmış, daha bir neçə kənddə də yeni quyuların qazılması nəzərdə tutulur.**

(ardı gələn sayımızda)

***Məzahir ƏHMƏDOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ